***Kütləvi informasiya vasitələrinin “Möhtəşəm yürüş”, “Ümumxalq aksiyası”, “ Soyqırımı qurbanlarının xatirəsinə ehtiram”, “Xalqımız xocalılı anaya baş əydi” kimi sərlövhələrlə oxuculara, dinləyicilərə, tamaşaçılara təqdim etdiyi məlum tədbirin məqsədi hamıya məlum idi. Ancaq yürüşdə iştirak edən Prezident İlham Əliyevin “Rossiya -24”telekanalına verdiyi müsahibədə bu tədbirin məramı daha bəşəri şəkildə dilə gətirildi: “Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın”. Hər halda milyonlarla insan şahid oldu ki, Azərbaycan xalqının Xocalı yürüşü dünya ictimaiyyətinə ümumxalq aksiyası şəkilində, sülhə, əmin-amanlığa, sabitliyə çağırış kimi təşkil edilmişdi.***

**Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar – qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaq. Bu, bizim yaddaşımızda həmişəlik qalacaq.**

***Azərbaycan Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə “Rossiya-24” telekanalına verdiyi müsahibədən***

## *Prezident İlham ƏLİYEV:*

# Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın





Xocalı faciəsi ermənilərin bu torpaqlara köçürülməsindən ötən yüzilliklər boyu dövri olaraq, daim davam edən düşmənçilik, işğalçılıq, seperatçılıq planlarının tərkib hissələrindən biri idi. Bu faciəni müxtəlif dövrlərdə azərbaycanlıları öz ata-baba yurdlarından köçürənlər, “deportasiya müəllifləri” körükləmişdilər. Bu soyqırımı Birinci dünya müharibəsindən sonra yaranmış vəziyyətdən bəhrələnərək Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradanların fitnə-fəsadının nəticəsi idi. Çəkinmədən deyə bilərik ki, Xocalı soyqırımında və 1990-cı ilin 20 Yanvar faciəsini törədənlərin də məkrli əl izləri var idi.

Azərbaycan xalqı öz liderinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının da iştirak etdiyi möhtəşəm aksiyada nümayiş etdirdiyi mütəşəkkilliklə təkcə faciədə bilavasitə günahkar olan Serj Sarkisyan, Robert Koçaryan, Seyran Ohanyan və digər canilərin əməllərinə etiraz etmirdi. Xalqımız, eyni zamanda, beynəlxalq aləmdə davam edən ikili standart müəlliflərinə etiraz edirdi ki, dünyanın əksər nöqtələrində baş vermiş cinayət əməllərinə, hətta adicə demokratik dəyərlərdən kənara çıxılması hallarına dərhal reaksiya verildiyi halda, nə üçün Xocalı faciəsi kim antibəşəri cinayət əməli adekvat qiymətini ala bilmir?

On minlərlə paytaxt sakininin qatıldığı izdihamlı yürüşün iştirakçıları bilavasitə Ermənistan -- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə etiraz edirdi. Xalq həmin quruma sədrlik edən üç böyük dövlətin – Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və Fransanın başdan ayağa cinayətkarlardan ibarət olan, terrorçu və təxribatçıların idarə etdiyi cırtdan Ermənistanın əlində “əsir-yesir qalması”nın, dünya ictimaiyyətinin ermənilərə “işğal etdiyiniz torpaqlardan çıxın!” -- deyə bilməməsinin səbəbini soruşurdu.

Bakı Şəhər İcra Hakimiyyətinin məlumatında qeyd edilirdi ki, “Xalqla hakimiyyətin birliyinin, xalqın öz rəhbərinə dəstəyinin nümayişinə çevrilən yürüş”də əlli beş mindən çox insan iştirak edirdi. Ön sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları yürüş zamanı “Xocalıya ədalət!”, “Xocalını unutmayın!”, “Rədd olsun erməni faşizmi!” və digər çoxsaylı şüarlar nümayiş etdirilirdi.

Bildirilirdi ki, bu yürüş xalqla hakimiyyətin birliyini, vəhdətini və xalqın öz rəhbərinə verdiyi böyük dəstəyi bir daha göstərdi. Yürüşdə iştirak edən böyük insan kütləsi Xocalı soyqırımının heç zaman unudulmayacağını və bu qanlı cinayəti törədənlərin Azərbaycan Prezidentinin apardığı siyasət, gördüyü işlər nəticəsində cəzasız qalmayacaqlarına xalqımızın inamını nümayiş etdirdi.

Bu gün artıq təkcə ölkəmizdə və ya regionda deyil, eləcə də bütün dünyada hamıya məlumdur ki, dövlətimizin ən böyük problemi məhz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Məhz ona görə də Prezident İlham Əliyevin bütün çıxışlarında prioritet istiqamətlərdən biri Dağlıq Qarabağ problemi olur: “Xarici siyasətimizin prioriteti, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Əfsuslar olsun ki, bu illər ərzində münaqişə həllini tapmamışdır. Bunun başlıca səbəbi Ermənistanın riyakar siyasətidir, qeyri-konstruktiv mövqeyidir və əfsuslar olsun ki, beynəlxalq birliyin, bu məsələ ilə bilavasitə məşğul olan tərəflərin biganəliyidir”.

Beynəlxalq ictimaiyyətin ikili standartlardan əl çəkə bilməməsinə, Minsk qrupunun fəaliyyətsizliyinə və Qafqazda marağı olan güclü dövlətlərin cəsarətsizliyinə baxmayaraq, Azərbaycan Prezidenti Dağlıq Qarabağ münaqişəsinin məhz ədalətli şəkildə həll edilməsi istiqamətində nümayiş etdirdiyi qətiyyətlə ümumxalq rəğbəti qazanmışdır. İlham Əliyev BMT başda olmaqla bütün beynəlxalq təşkilatların tribunasından dönə-dönə vurğulamışdır ki, ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına nə imkan, nə də icazə verəcəkdir.

Dövlət başçımız dünya siyasətçilərinə dəfələrlə anlatmışdır ki, Azərbaycan dövlətinin mövqeyi tarixi ədalətə və beynəlxalq hüquq normalarına söykənir. Prezidentin də vurğuladığı kimi, geridə qalan illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar tərəfindən qətnamələr qəbul edilmişdir. Bu istiqamətdə səylərin davam etdirilməsi vacib məsələdir.

Yeri gəlmişkən, dövlət başçımız hələ 2013-cü ildə xüsusi olaraq vurğulamışdı ki, bu məsələ ilə bağlı diplomatiyada hücum taktikası seçiləcəkdir. Bir sözlə, İlham Əliyev strateji hədəf olaraq ərazi bütövlüyümüzü və tarixi ədalətin bərpasını daim ön plana çəkir. Dövlət başçımız münaqişənin tam şəkildə həll ediləcəyinə əminliyini ifadə edərək demişdir ki, ilk növbədə, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır: “Ondan sonrakı mərhələlərdə azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar. Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılmalıdır və əminəm ki, belə də olacaqdır… Bizim cəmiyyətimiz, gənc nəsil, bütün vətənpərvər insanlar bu amalla yaşamalıdır ki, biz tarixi ədaləti bərpa edək”.

Yəni, fevralın 26-da Bakıda keçirilmiş ümumxalq yürüşü Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi, xüsusən, Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsi idi. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər.

26 fevral yürüşünü əlamətdar edən faktlardan biri də tədbirdə Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilovdan ibarət geniş nümayəndə heyətinin də iştirak etməsi idi.

Xatırladaq ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşünün keçirilməsi dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Kütləvi informasiya vasitələri xüsusi olaraq qeyd edirlər ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması, nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükədir.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***